YENİ Təfəkkür
Yüksəlişə doğru yol!

# Qızıl Aypara - 105

# "Novruz Aslanov həm qayğıkeş, həm də tələbkar rəhbərdir"

***Sizi bir ailə ilə tanış etmək istəyirəm. Elə bir ailə ki, təpədən dırnağa Ayparaçılardır. Ata, ana, oğul... Ata da, ana da bu gün Ayparanın veteranıdır, oğul isə Miqrasiya şöbəsinin müdiridir. Söhbət Kətanovlar ailəsindən gedir...***



Hərdən Qızıl Ayparada olanda söhbətlərdən eşidirdim ki, Məmmədin 6-7 yaşı vardı anasının yanında Ayparaya gələndə. Gözümüzün qabağında böyüdü. Yəni kiçik yaşlarından böyük Aypara ailəsinin içində böyüdü. Hər dəfə bu söhbətləri eşidəndə mənə çox maraqlı gəlirdi onun həyat yolu. Nəhayət, bu günlərdə, yəni Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 105 illiyi ərəfəsində bu ailə ilə görüşüb söhbət etməyi qərara aldım. Məmməd gəlib məni işdən götürdü və İçərişəhərdəki evlərinə yollandıq. İçəri girən kimi Mərziyyə xanım gülə-gülə görüşüb, - heç dəyişməmisən, - dedi. 10 ildir görüşmürük, - az müddət deyil. Mən də dedim, - maşallah, siz də yaxşısınız, elə həmin gülərüz Mərziyyə xanım. Qarşılıqlı səmimiyyətlə bir-birimizə mehribanlıq nümayiş etdirdik.

Diktafonu açıb əvvəlcə ailənin başçısı Teymur Kətanova sual verdim ki, Ayparada neçə il çalışdınız? Dedi ki, düz 33 il. 1981-ci ildən 2008-ci ilə kimi. Yəni təqaüdə çıxanadək. Həmin illər ərzində Cəmiyyətin bir çox şöbələrində çalışmışam. İlk dəfə müfəttiş kimi, yəni rayon bölmələrinin fəaliyyətini, tibb bacılarının, bir sözlə, bütün Cəmiyyətin fəaliyyətini yoxlayıb hesabat verirdim. Sonra Maliyyə-plan şöbəsində, Humanitar yardım, Miqrasiya şöbələrində işləmişəm. Özünü tərifləmək olmasın, bir çox layihələri mən işləmişəm. Aypara Cəmiyyətinin fundamental prinsiplərindən biri humanitar yardım göstərməkdir. Kasıb təbəqələrin, xəstə insanların, kimsəsiz, tənhaların daim yanında olurduq. Rayonlarda, şəhərlərdə evləri yanan, fəlakətə düçar olanların harayına çatırdıq, evin qapısı, pəncərəsi yoxdursa, onu düzəldirdik, yəni yardımlarımız hərtərəfli idi. Ayparanın bu fəaliyyəti əhali arasında çox diqqətdə idi. Çünki əsasən əhalinin sosial cəhətdən zəif təbəqəsi ilə təmasda olurduq. Mən Ayparanın çox çətin dövründə işləmişəm. Hər çətinliyi görmüşəm. İndi o çətinlikləri sadalamaq istəmirəm, çünki çox uzaqda qalıb. Bir onu deyə bilərəm ki, Ayparanın ən parlaq inkişaf dövrü 1999-cu ildə Novruz Aslan Cəmiyyətə prezident gələndən sonra başlayıb. Ayparanın cəmiyyətdə daha yaxşı tanınması, dövlət tərəfindən maliyyə vəsaitinin verilməsi, Aypara haqqında bir neçə qanunun qəbul edilməsi məhz Novruz Aslanın rəhbərliyi dövründən başlayıb. Novruz Aslan Milli Məclisə deputat seçildi. Bunun özü də Aypara Cəmiyyətinə inamdan, etimaddan irəli gəlir.

Sözün həqiqi mənasında Qızıl Aypara Cəmiyyətinin həyatında çox böyük yeniliklər baş verdi. İndi Bakıda fəaliyyət göstərən ən böyük marketlərdə Ayparanın ianə qutuları qoyulub ki, əhalinin bütün təbəqələri bu qutulara ianələrini atırlar. Bilirlər ki, onların bu ianələri imkansız, kimsəsiz, xəstə insanlara sərf ediləcək. Hansısa yardıma möhtac insana kömək etmiş olacaqlar. Bütün bunlar Novruz müəllimin əməyinin, düşüncəsinin nəticəsidir. Novruz müəllim səmimi insandır, demək olar ki, hamı ilə dostdur, yoldaşdır. Mehriban münasibətləri var.

Dediyim kimi, Ayparanın əsas missiyası humanitar yardım göstərməkdir. Tənha qocalara, yataq xəstələrinə kömək etmək başlıca işlərdən biridir. Sonralar başqa xarici ölkələrin Aypara təşkilatlarından layihələr gəldi. Bilirsiniz ki, Azərbaycanın torpaqları işğal olunmuşdu, bir milyondan çox qaçqın-köçkünümüz vardı. Qızıl Aypara Cəmiyyəti qaçqın uşaqları üçün yay düşərgələri təşkil edirdi. Layihə əsasında hər il 100 uşağın yay istirahətini biz təşkil edirdik. Onların yeməklərinə, geyimlərinə qədər verirdik.

Aypara mənim həyatımda silinməz izlərlə qalıb. Burada işləyəndə imkanım daxilində insanlara yardım göstərə bilmişəm, yəni öz şəxsi vəsaitimlə. Gördüyüm bu cür xeyirxah işlər bu gün də qəlbimi rahatlayır...

Söhbətin bu yerində Teymur Kətanovun ömür-gün yoldaşı Mərziyyə xanım söhbətə qarışır. Deyir ki, imkan yarandı, 1989-cu ildə mən də Ayparada işə başladım. Əvvəlcə tibb bacısı kimi fəaliyyət göstərdim, sonra isə mühasib işlədim. 2015-ci ildə təqaüdə çıxmışam. İndi övladımız Məmməd Ayparada çalışır. Miqrasiya şöbəsinin müdiridir. Övladlarımın hamısı Ayparanın könüllüsü olub. Nə iş olurdusa, könüllü kömək edirdilər. Ataları hansı işi deyirdisə, ona can-başla kömək göstərirdilər. Məmməd 10 il burada könüllü olub. Sonra onun könüllü fəaliyyətini nəzərə alıb Ayparada işə qəbul etdilər...

**Bu yerdə Məmməd söhbətə qarışır:**

- Valideynlərim hər ikisi Ayparada işlədiyindən, bizim evdə bu Cəmiyyət haqqında çox böyük təəssürat oyanıb. Hər dəfə onlarla oraya gedib gəlirdim. Ayparada çox yaxşı layihələr həyata keçirilirdi.

Ağacəkmə kampaniyalarında könüllü kimi iştirak edirdim. Belə işlər xoşuma gəlirdi. Zaman-zaman yaşa dolduqca Ayparanın işi mənə daha maraqlı gəldi. İnsanlara yardım etmək, yataq xəstələrinə qulluq etmək, ümumiyyətlə, ehtiyaclı insanlara kömək göstərmək hər gün məni ruhlandırırdı. 10 il Ayparada həqiqi könüllü kimi fəaliyyət göstərmişəm. Təəssüflər olsun ki, indi könüllülük deyəndə bəzilərini birinci, fəxri fərmanlar maraqlandırır, ikinci, pul maraqlandırır, üçüncü, cəhd edir ki, həmin təşkilatda işlə təmin olunsun. Əvvəllər biz bunu düşünmədən xalqımıza, dövlətimizə yardımçı olmağı özümüzə borc bilirdik. Yaşa dolduqca müxtəlif layihələrdə fəal iştirak edirdim. Yay düşərgələrində can-başla xidmət göstərirdim. Novruz müəllim sağ olsun, işləyənlərin əməyini qiymətləndirir, irəli çəkir. Mənim də çalışqanlığımı nəzərə aldı. 2008-ci ildən Miqrasiya şöbəsinin müdiriyəm. Yəni demək istəyirəm ki, illərlə bu işin içində olmuşdum, bişmişdim, ona görə də məni birbaşa şöbə müdiri təyin etdi. Mən bu etimadı doğrultmaq üçün bütün bilik və bacarığımı səfərbər etdim. Yerli təşkilatlarla əlaqə yaratdım, onlardan yığdığımız yardımları rayonlarda məskunlaşmış qaçqınlarımıza çatdırırdıq. İşimizi elə qururduq ki, bütün rayonlara gedir, orada əziyyət çəkən insanlara yardımlar göstərirdik. Sonra mənə "Silahlara qarşı mübarizə" proqramının koordinatorluğu həvalə olundu. 2013-cü ildən Almaniya Qızıl Xaçından Azərbaycan Qızıl Aypara Cəmiyyətinə 4 "Təhlükəsiz Oyun meydançası"nın qurulması üçün avadanlıqların gətirilməsinə, onun uğurla həyata keçirilməsinə nail olduq. Açılışlarını etdik. Açılışlarda Almaniya Qızıl Xaçın nümayəndəsi də iştirak etdi. Onların xoşuna gəldi ki, uşaqlar üçün bu cür oyun meydançaları qurulur. Uşaqlar minaya düşmək təhlükəsindən xilas olurlar.

Çox şükürlər olsun ki, biz bu layihəni 12-ci ildir uğurla davam etdiririk. Bilirsiniz ki, işğaldan azad edilmiş ərazilərimizdə mina və partlamamış hərbi sursatlar var. Biz əhali arasında maarifləndirici təlimlər keçiririk. Təlim keçmiş könüllülərimiz çoxdur. 300 könüllümüz ANAMA-dan sertifikat alıb. Sözsüz ki, biz dövlətə yardımçı təşkilatıq. Ona görə də ərazilərimizdən minaların təmizlənməsində bizim təlim keçmiş könüllülərimiz də fəal iştirak edirlər. Müharibə dövründən Türk Qızıl Ayı da bizə dəstək göstərir. Onlarla biz bölgələrimizi gəzdik, insanlarla həmsöhbət olduq.

Miqrasiya şöbəsində 2013-cü ildən miqrantlar üçün Azərbaycan dili kursu açmışıq. Artıq miqrantlar böyük həvəslə bizim dilimizi öyrənirlər. Bu gün həmin miqrant uşaqlarından universitetlərdə təhsil alanları da var.

Bizim çox təşəbbüskar, tələbkar rəhbərimiz var. Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov hər birimizə qayğı ilə yanaşdığı kimi, həm də tələbkarlıq göstərir. Biz ondan çox şey öyrənirik. Bir şeyi də unutmuram ki, atam da daim mənə dəstək olur, onun təcrübəsindən yararlanıram.

Bu il Qızıl Aypara Cəmiyyətinin 105 ili tamam olur. Bundan sonrakı fəaliyyətimizi də bu istiqamətdə quracağıq.

**Şəmsiyyə Kərimova,**
**Əməkdar jurnalist**